Günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür, Adəm həmin gün yaradılıb, həmin gün Cənnətə daxil edilib, həmin gün oradan çıxarılıb və Qiyamət yalnız cümə günü qopacaq».

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, günəşin üzərinə doğduğu ən xeyirli gün cümə günüdür. Onun xüsusiyyətlərindən: Allah Adəmi o gündə yaratdı və o gündə onu Cənnətə daxil etdi və o gündə onu oradan çıxarıb yerə endirdi və Qiyamət yalnız cümə günündə qopacaq.

http://www.sunnah.global/hadeeth/az/show/3711